Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Alimlərə birbaşa mesaj verildi - Gənc nəsil üçün bu çox vacibdir...

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Gender bərabərliyi günümüzün ən aktual məsələlərindən biri kimi daimi müzakirə mövzusu olaraq qalmaqdadır. Bütün sahələrdə, o cümlədən də elm sahəsində, akademik düşərgədə gender bərabərliyinin təmin olunub-olunmadığı, bu istiqamətdə qadınların payının nə qədər olduğu məsələsi diqqətdədir. Dünya tədqiqatçıları məsələyə müəyyən istiqamətdən baxır. Bəzi tədqiqatlardan hiss olunur ki, bu sahədə sayca kişilər qadınlardan üstündür, bəzi tədiqatlarda bərabərlik müşahidə olunur.**



Uşaq və gənclər həyatın ən dinamik və təməlli inkişaf dövrünü keçirlər. Bu dövr yalnız fiziki dəyişikliklərlə deyil, eyni zamanda, psixoloji və sosial inkişafla da xarakterizə olunur. Uşaqların və gənclərin fiziki və mənəvi inkişafı onların gələcək həyatı, formalaşması və cəmiyyətə inteqrasiyası üçün böyük əhəmiyyət kəsb edir. Qloballaşan dünyada elmin və texnologiyanın sürətli inkişafı, internetin təkcə insanların işinə deyil, həyat tərzinə də təsiri bir çox müsbət tərəfləri ilə yanaşı cəmiyyətin gələcək inkişafı, xüsusi ilə də Azərbaycan kimi milli və ailə dəyərləri möhkəm olan ölkələrdə narahatlıqlar da yaratmamış deyil.

### Gənclərin təlim-tərbiyəsində milli dəyərlərin öz yeri və rolu olub

Azərbaycanda ta qədimlərdən bugünə qədər istər ailənin formalaşmasında, istərsə də gənclərin təlim-tərbiyəsində milli dəyərlərin öz yeri və rolu olub. Hər bir insanın cəmiyyətdəki davranışlarını tənzimləyən qanunlarla yanaşı, xalqın milli adət-ənənələrindən irəli gələn yazılmamış qanunlar da həyatımızın bir parçasına çevrilib. Hər bir xalqın hüquqi sistemi ilə yanaşı, onun tarixdən, mədəniyyətdən və ənənələrdən irəli gələn, yazılmasa da, cəmiyyət tərəfindən qəbul edilən və riayət olunan "yazılmamış qanunlar"ı mövcuddur. Azərbaycan xalqı da əsrlər boyunca formalaşmış milli adət və ənənələr əsasında davranış normaları və sosial münasibətlər sistemini qurub. Bu dəyərlər nə qanun kitabında yazılıb, nə də rəsmi qərarlarla təsdiqlənib, amma onların qüvvəsi zaman-zaman hər bir ailədə, kənddə, məclisdə özünü göstərib.

### Azərbaycan gəncləri öz tarixini yaxından bilməlidir

Prezident İlham Əliyev AMEA-nın 80 illik yubleyində çıxışında gənclərin mənəvi inkişafı ilə bağlı önəmli məqama toxunub: "Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayıb. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin".

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən şərqşünas Seyid Camal Əzimbəylinin fikrincə, tariximizin gənclərə təbliğ edilməsi xüsusilə vacibdir: "Əvvəla, sevindirici haldır ki, 5 ildir uşaqlar, gənclər şanlı Zəfərimizin tarixini yaşayır. Qalib xalq, qalib dövlət şüarı altında formalaşırlar. Hesab edirəm ki, inanılmaz duyğudur bu. Çünki biz beynəlxalq ədalətsizliyin, hüquqsuzluğun nə olduğunu yaxşı bilirik. Ən azından ona görə ki, 30 ilə yaxın 20 faiz ərazilərimiz işğal altında qalıb və bu müddət ərzində beynəlxalq hüququn gözü kor, qulağı kar olub. Bir dəfə olsun işğalçı ilə işğala məruz qalan tərəfə fərq qoyulmayıb. Müxtəlif beynəlxalq tədbirlərdə üzü ağ gəzə bilmirdik. Çünki ərazilərimiz işğal altında idi. Şükürlər olsun ki, Ali Baş Komandanın məqsədyönlü siyasəti, uğurlu sərkərdəliyi sayəsində şanlı ordumuz bizi bu xəcalətdən xilas etdi. Ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edildi. Bütün bunlarla yanaşı, biz qələbənin təsiri altında araxayınlaşmamalıyıq.

Dilimizi, tariximizi qorumalıyıq. Keçmişdə başımıza gələn müsibətləri gənclərə təlqin etməliyik. Gənc nəsil bilməlidir ki, böyük dövlətlər Azərbaycanın ərazilərini parçalayıblar, bizi bölüblər. Tarixi Azərbaycan əraziləri indikindən qat-qat böyük olub. Bütün bunları gənc nəsil bilməlidir. Təhsil ocaqlarında bununla bağlı tədris-tərbiyə, təbliğat mükəmməl səviyyədə qurulmalıdır".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***